AZƏRBAYCAN TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ
AZERBAIJAN TURKEY BUSINESS ASSOCIATION

**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# "EcoVision" jurnalının növbəti sayı qlobal iqtisadi böhran və onun Azərbaycan və Türkiyə iqtisadiyyatına təsirləri barəsindədir

**No: 10/06/123**
**19.05.2010**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) milli biznesin inkişafına dəstək vermək, iş adamlarını ən zəruri informasiya ilə təmin etmək məqsədilə təsis etdiyi "EcoVision" jurnalının növbəti sayı (**http://atib.az/domains/atib/assets/file/EcoVision-3__web.pdf** ) işıq üzü görüb.

Jurnalın bu sayı qlobal iqtisadi böhran və onun Azərbaycan və Türkiyə iqtisadiyyatına təsirləri məsələsinə həsr olunub. Bununla bağlı ATİB-in tədqiqatlar şöbəsinin, eyni zamanda Türkiyənin öndə gələn və 1957-ci ildən fəaliyyət göstərən iş adamları dərnəklərindən olan TÜSİAD-ın ekspertlərinin hazırladığı təhlil yazılarında mövzuya müxtəlif aspektlərdən toxunulur. Bu sayda eyni zamanda, Azərbaycan Mərkəzi Bankının sədr müavini Xəqani Abdullayevlə müsahibədə Azərbaycanın böhran dövründə yeritdiyi siyasət təhlil edilir, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Əvəz Bayramovla müsahibədə isə qlobal böhran kontekstində iqtisad elminin qarşılaşdığı problemlər müzakirə olunur. Həmçinin mövzu ilə bağlı iqtisadçı-ekspert İnqilab Əhmədovla müsahibədə əsas mövzu təhlil edilir.

Jurnalda Türkiyənin xarici işlər naziri Ahmet Davudoğlunun Azərbaycan və Türkiyə əlaqələri ilə bağlı verdiyi eksklüziv müsahibədə məsələ ilə bağlı Türkiyənin rəsmi mövqeyi oxucuların diqqətinə çatdırılır (http://atib.az/domains/atib/assets/file/Ahmet_Davudoglu_musahibe.doc.pdf). Eyni zamanda, Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Nuriyevlə müsahibə regionda baş verən prosesləri ən müxtəlif tərəflərdən təhlil edir. Azərbaycan və Türkiyə arasındakı qaz ixracı ilə bağlı danışıqlar isə təhlil yazısında təqdim edilir.

Jurnalın üçüncü sayında ATİB İdarə Heyətinin sədri, Fatimə Aslanın uğurun sirrini də açıqladığı müsahibəsi oxucuların diqqətinə çatdırılır. Korporativ idarəetmə və hüquqi risklərin menecmenti ilə bağlı ekspert yazıları da jurnalın bu sayında yer alır. Türkiyədə "insan mühəndisi" adlandırılan bəşəri qaynaqlar üzrə tanınmış mütəxəssis Ergun Zoga ilə müsahibədə iş adamlarını yaxından maraqlandıran bir çox məsələyə toxunulub.

Jurnalda ATİB-ə daxil olan biznes təklifləri və önümüzdəki dövrdə ölkəmizdə və regionda planlaşdırılan tədbirlər barədə məlumatlar da öz əksini tapır. "EcoVision"un bu sayında ölkədə, regionda, dünyada baş verən hadisələr, həmçinin ATİB-in fəaliyyəti barədə xəbərlər verilir, Azərbaycanda nəşr edilən maraqlı kitablardan bəziləri barəsində qısa resenziyalar təqdim edilir. Eyni zamanda, Azərbaycanın son 10 ildə keçdiyi iqtisadi yolun göstəricilərini yığcam şəkildə oxucuların diqqətinə çatdırılır.

Rüblük olaraq buraxılan jurnalın tirajı 3000 nüsxədir. Jurnal dövlət təşkilatları, hökumət orqanları, QHT-lər, şirkətlər, ali təhsil müəssisələri, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəlikləri və özəl şirkətlərə pulsuz yayılır.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**